# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

~~1. Azərbaycan Respublikası Baş nazirinin müavini Ə.T.Məmmədov yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika Komissiyasının sədri təyin edilsin.~~[2]

2. Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika Komissiyasının tərkibi təsdiq edilsin (əlavə olunur).

~~3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 fevral 1993-cü il tarixli 110 saylı qərarı ilə təsdiq edilmiş "Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika Komissiyası haqqında" Əsasnamənin 4-cü bəndi dəyişdirilərək, aşağıdakı redaksiyada ifadə olunsun:~~

~~"Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, şəhər və rayon icra hakimiyyəti orqanlarına qüvvədə olan qanunvericilik nəzərə alınmaqla, yol hərəkəti təhlükəsizliyinin təmin olunması üzrə komissiyaların yaradılması və əsasnamələrin təsdiq edilməsi təklif olunsun. İcra hakimiyyəti başçısının müavinlərindən biri komissiyanın sədri təyin edilir".~~[3]

4. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika Komissiyasının tərkibi barədə Azərbaycan Respublikası Nazirlər Sovetinin 10 yanvar 1990-cı il tarixli 18 saylı qərarı öz qüvvəsini itirmiş sayılsın.

**Baş nazir S.HÜSEYNOV**

Bakı şəhəri, 3 mart 1994-cü il
93

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1994-cü il 3 mart tarixli 93 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## [4] Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyasının üzvlərinin

## S İ Y A H I S I[5]

***Komissiyanın sədri***

*Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini*

***Komissiya sədrinin müavini***

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi*

***Komissiyanın üzvləri:***

*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri*
*Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri*
*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri*
*Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri*
*Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin Yol-nəqliyyat hadisələrinin ekspertizaları şöbəsinin rəisi*
*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri*
*Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Texniki Universitetinin Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi kafedrasının müdiri*
*Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının Şəhər təsərrüfatı şöbəsinin müdiri*
*Azərbaycan Avtomobil Federasiyasının baş katibi*
*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin Yol hərəkətinin təşkili şöbəsinin baş mühəndisi, Komissiyanın məsul katibi.*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 aprel 1995-ci il tarixli **91** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
2. 11 avqust 1999-cu il tarixli **128** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 08, maddə 524**)
3. 24 fevral 2012-ci il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 187**)
4. 3 fevral 2016-cı il tarixli **29** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 372)**
5. 22 iyun 2016-cı il tarixli **237** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 25 iyun 2016-cı il, 136 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1213)**
6. 19 sentyabr 2017-ci il tarixli **377** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
7. 15 mart 2018-ci il tarixli **101** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti 22 mart 2018-ci il, 63 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 611)**
8. 9 aprel 2018-ci il tarixli **137** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 10 aprel 2018-ci il, 79, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 792)**
9. 8 may 2018-ci il tarixli **208** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 9 may 2018-ci il, 104 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 1116)**
10. 4 oktyabr 2018-ci il tarixli **428** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 oktyabr 2018-ci il, 224 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2143)**
11. 29 avqust 2019-cu il tarixli **374** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 avqust 2019-cu il, 190 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1479 )**
12. 6 dekabr 2019-cu il tarixli **466** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2019-cu il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 2050 )**
13. 3 dekabr 2020-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 5 dekabr 2020-ci il, 255 )**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 24 aprel 1995-ci il tarixli **91** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "**Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika Komissiyası**" Komissiya adı **"Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası"** adlandırılmışdır.

[2] 24 fevral 2012-ci il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 187**) ilə 1-ci hissə ləğv edilmişdir.

[3] 11 avqust 1999-cu il tarixli **128** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 08, maddə 524**) ilə 93 nömrəli qərarının 3-cü bəndi qüvvədən düşmüş hesab edilmişdir.

[4] 24 aprel 1995-ci il tarixli **91** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Komissiyanın tərkibi yeni redaksiyada təsdiq edilmişdir.

24 fevral 2012-ci il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 187**) ilə 2-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | | |
|---|---|---|
| ~~Ə. T. Məmmədov~~ | – | ~~Azərbaycan Respublikası Baş nazirinin müavini (sədr)~~ |
| ~~Ə. S. Piriyev~~ | – | ~~Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi hərbi və inzibati orqanlar şöbəsi müdirinin birinci müavini (sədr müavini)~~ |
| ~~A. A. Məmmədov~~ | – | ~~Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi nəqliyyat və rabitə şöbəsi müdirinin müavini~~ |
| ~~R. B. Javadov~~ | – | ~~Azərbaycan Respublikası daxili işlər nazirinin müavini~~ |
| ~~Ə. J. Əzizov~~ | – | ~~Bakı Şəhər İcra hakimiyyəti başçısının müavini~~ |
| ~~V. M. Nadirli~~ | – | ~~Azərbaycan Dəmir Yolu İdarəsinin rəisi~~ |
| ~~T. İ. Hüseynov~~ | – | ~~Azərbaycan Respublikası DİN Dövlət Yol Polisi İdarəsinin rəisi~~ |
| ~~3. H. Hüseynova~~ | – | ~~Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~ |
| ~~J. Q. Qurbanov~~ | – | ~~"Azəravtoyol" Dövlət Şirkətinin prezidenti~~ |
| ~~J. J. Məmmədov~~ | – | ~~Azərbaycan Respublikası Kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~A. H. Aslanov~~ | – | ~~"Azəravtonəqliyyat" Dövlət Konserninin prezidenti~~ |
| ~~V. S. Lobanov~~ | – | ~~Komissiyanın məsul katibi~~ |

3 fevral 2016-cı il tarixli **29** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 372**) ilə "Komissiyanın üzvləri" bölməsində aşağıdakı dəyişikliklər edilmişdir:

1. "**Qulu Novruzov**" sözləri "**Ceyhun Bayramov**" sözləri ilə, "**Arif Əsgərov**" sözləri "**Cavid Qurbanov**" sözləri ilə, "**Cavid Qurbanov - Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədri**" sözləri "**Saleh Məmmədov - "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədri**" sözləri ilə əvəz edilmişdir.
2. "**Elşən Hacızadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının nəqliyyat və rabitə şöbəsinin müdiri** " sözlərindən sonra "**Elman**

**Gərayzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının hərbi və inzibati orqanlar şöbəsinin müdiri**” və “**Vüsal Kərimli - Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Bakı Nəqliyyat Agentliyinin Baş direktoru**” sözləri əlavə edilmişdir.

3. “**Çingiz Baxişev - Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi** ” və “**Novruzəli Orucov - Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyətlərinin Respublika Şurasının sədri**” sözləri çıxarılmışdır.

22 iyun 2016-cı il tarixli **237** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 25 iyun 2016-cı il, 136 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1213)** ilə “Komissiyanın üzvləri” bölməsində “**Azəryolservis**” sözü “**Azəravtoyol**” sözü ilə əvəz edilmişdir.

19 sentyabr 2017-ci il tarixli **377** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə “Komissiyanın üzvləri” bölməsində “ **Elşən Hacızadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının nəqliyyat və rabitə şöbəsinin müdiri**” sözləri “**Şahin Salahov - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri**” sözləri ilə və “**Elman Gərayzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının hərbi və inzibati orqanlar şöbəsinin müdiri**” sözləri “**Qulu İmanquliyev - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri**” sözləri ilə əvəz edilmişdir.

4 oktyabr 2018-ci il tarixli **428** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 6 oktyabr 2018-ci il, 224 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2143)** ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı”nın “Komissiyanın sədri” bölməsində “**Abid Şərifov**” sözləri “**Hacıbala Abutalıbov**” sözləri ilə və “Komissiyanın üzvləri” bölməsində “**Ceyhun Bayramov**” sözləri **“Firudin Qurbanov**” sözləri ilə əvəz edilmişdir.

15 mart 2018-ci il tarixli **101** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti 22 mart 2018-ci il, 63 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 611)** ilə “Komissiyanın üzvləri” bölməsində “**Musa Pənahov – nəqliyyat nazirinin müavini**” sözləri “**Elmir Vəlizadə – nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini** ” sözləri ilə əvəz edilmişdir.

9 aprel 2018-ci il tarixli **137** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 10 aprel 2018-ci il, 79, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 792)** ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin siyahısı”nın “Komissiyanın üzvləri” bölməsində “**Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri**” sözləri “**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri**” sözləri ilə əvəz edilmişdir.

8 may 2018-ci il tarixli **208** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 9 may 2018-ci il, 104 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 1116)** ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı”nın “**Komissiyanın üzvləri” bölməsində “Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Bakı Nəqliyyat Agentliyinin Baş direktoru**” sözləri “**Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri** ” sözləri ilə əvəz edilmişdir.

29 avqust 2019-cu il tarixli **374** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 31 avqust 2019-cu il, 190 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1479 )** ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı” yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~***Komissiyanın sədri***~~

| | |
|---|---|
| ~~*Hacıbala Abutalıbov*~~ | ~~*– Azərbaycan Respublikası Baş nazirinin müavini*~~ |
| | ~~***Komissiya sədrinin müavini***~~ |
| ~~*Ramiz Zeynalov*~~ | ~~*– Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi*~~ |
| | ~~***Komissiyanın üzvləri:***~~ |
| ~~*Rəfail Mirzəyev*~~ | ~~*– fövqəladə hallar nazirinin birinci müavini*~~ |
| ~~*Elmir Vəlizadə*~~ | ~~*– nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*~~ |
| ~~*Elsevər Ağayev*~~ | ~~*– səhiyyə nazirinin müavini*~~ |
| ~~*Firudin Qurbanov*~~ | ~~*– təhsil nazirinin müavini*~~ |
| ~~Cavid Qurbanov~~ | ~~*– “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri*~~ |
| ~~Saleh Məmmədov~~ | ~~*– Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri*~~ |
| ~~*Şahin Salahov*~~ | ~~*– Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri*~~ |
| ~~*Qulu İmanquliyev*~~ | ~~*– Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri*~~ |
| ~~Vüsal Kərimli~~ | ~~*– Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri*~~ |
| ~~*Fuad Dadaşov*~~ | ~~*– Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin yol-nəqliyyat hadisələrinin ekspertizaları şöbəsinin rəisi*~~ |
| ~~*Səttar Mehbalıyev*~~ | ~~*– Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri*~~ |
| ~~*Əsgər Tağızadə*~~ | ~~*– Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Texniki Universitetinin Yol hərəkəti təhlükəsizliyi kafedrasının müdiri*~~ |
| ~~*Xalid Ələkbərov*~~ | ~~*– Bakı Şəhər İcra Hakimiyyəti şəhər təsərrüfatı şöbəsinin müdiri*~~ |
| ~~*İsa Deystani*~~ | ~~*– Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi Hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə şöbəsinin inspektoru, Komissiyanın məsul katibi.*~~ |

~~**İşlər müdiri İ.Hacıyev**~~

-

6 dekabr 2019-cu il tarixli **466** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 8 dekabr 2019-cu il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 2050 )** ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı”nın “Komissiyanın sədri” bölməsinə “**Azərbaycan Respublikası Baş Nazirinin müavini**” sözlərindən əvvəl “**Şahin Mustafayev -**” sözləri əlavə edilmişdir.

-

[5] 3 dekabr 2020-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 5 dekabr 2020-ci il, 255 )** ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı” yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~***Komissiyanın sədri***~~

-

~~*Şahin Mustafayev – Azərbaycan Respublikası Baş Nazirinin müavini*~~

-

~~***Komissiya sədrinin müavini***~~

-

~~*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi*~~

-

~~***Komissiyanın üzvləri:***~~

~~*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri*~~

~~*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri*~~

~~*Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin birinci müavini*~~

~~*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini*~~

~~*Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini*~~

~~*Azərbaycan Respublikası Təhsil nazirinin müavini*~~

~~*“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri*~~

~~*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri*~~

~~*Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri*~~

~~*Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin yol-nəqliyyat hadisələrinin ekspertizaları şöbəsinin rəisi*~~

~~*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri*~~

~~*Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Texniki Universitetinin nəqliyyatda daşımalar və yol hərəkətinin təşkili kafedrasının müdiri*~~

~~*Bakı Şəhər İcra Hakimiyyətinin şəhər təsərrüfatı şöbəsinin müdiri*~~

~~*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə şöbəsinin inspektoru, Komissiyanın məsul katibi.*~~